*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 64-65 (7301-7302) ❁ Bazar ertəsi, 14 sentyabr 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# *Azərbaycan Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və gələn ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədən qeydlər*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinə hazırlığı işlərinə həsr edilmiş müşavirə keçirilmişdir. Müşavirədə çıxış edən dövlət başçısı qeyd etmişdir ki, hazırda Avrasiya məkanında dərin iqtisadi və maliyyə böhranı davam edir, tənəzzül müşahidə olunur. Bu böhran və tənəzzülün, əlbəttə, müxtəlif obyektiv səbəbləri var. Məsələ təhlilçilər tərəfindən araşdırılsa da bu bizim işimiz deyildir. Bizim işimiz bu prosesdən maksimum dərəcədə qorunmaqdır.

Cənab Prezident qeyd etmişdir ki, Yaxın Şərqdə son illər ərzində yüz minlərlə insan xarici müdaxilələr, qanlı toqquşmalar nəticəsində həlak olub. Bu müharibənin sonu, toqquşmaların sonu görünmür. Əksinə, yeni müharibə ocaqları yaranır və günahsız insanlar əziyyət çəkir, yüz minlərlə insanlar həlak olur. Cənab Prezident bu proseslərə ikinci dünya müharibəsindən sonra konkret qiymət verərək hadisələri böyük humanitar fəlakət adlandırmışdır. Lakin hadisələrlə bağlı Azərbaycan həmişə ədalətli mövqe tutmuş, ona görə də ölkəmiz bu mövqe, bu siyasətlə barışa bilmir. Bütün bu mənzərələrin fonunda ölkə iqtisadiyyatı inkişaf edir, sabitlik möhkəmlənir, beynəlxalq mövqelərimiz güclənir.

Cənab Prezident daha sonra çıxışında qeyd etmişdir ki, bu gün Yaxın Şərqdə həyata keçirilən senarilər vaxtilə Azərbaycan üçün də hazırlanmışdır. 2011—2012-ci illərdə bəzi xarici dairələr Azərbaycanda «Ərəb baharı»nın yaşanmasından söhbət açırdılar və deyirdilər ki, bu qaçılmazdır. Hadisələri düzgün qiymətləndirmək üçün onların min cür oyundan çıxmalarına baxmayaraq, hüquq-mühafizə orqanlarımız həmin oyunların üstünü açdılar, qarşısını aldılar. Bu gün isə Azərbaycan dünya miqyasında müasir, dünyəvi, inkişafda olan, açıq, tolerant bir dövlətdir. Azərbaycan heç kimə pislik etmir, heç kimə mane olmur, bütün ölkələrlə bərabərhüquqlu münasibət qurur. Çünki Azərbaycan sabitliyin qarantıdır və müstəqil həyatını təmin etmiş və bundan sonra da edəcəkdir. Məhz bu düzgün, real siyasətin nəticəsidir ki, ölkəmiz bütün çirkin əməllərdən, baş verəbiləcək bəlalardan qoruna bildi. İndi Ukraynaya, Yaxın Şərqə, Suriyaya, İraqa, Liviyaya, başqa bir sıra bəzi ölkələrə nəzər salsaq görərik ki, bu ölkələrin artıq ərazi bütövlüyü pozulub, bu ölkələr idarəolunmaz vəziyyətə düşüb. Yaxın Şərqdə hələ ki, hadisələrin sonu görünmür. Azərbaycanda isə sabitlik, inkişaf, normal həyat davam edir, ölkəmizə qarşı uzanan o çirkin əllər cənab Prezident başda olmaqla kəsilmişdir.

Ölkə başçısı çıxışına davam edərək göstərmişdir ki, bu müddət ərzində neftin qiyməti kəskin şəkildə aşağı düşüb, yəni 50 faiz enib. Heç də istisna olunmur ki, bunun özü də bəzi qüvvələrin siyasi sifarişinin nəticəsidir. Ancaq buna baxmayaraq ölkəmizdə şaxələndirmə, qeyri-neft sektorunun inkişafı və digər tədbirlərlə bağlı vəziyyətdən minimum itkilərlə çıxış yolu tapılmışdır. Bütün sosial proqramlar, sosial infrastruktur layihələr icra olunur, insanların təhlükəsizliyi, sosial müdafiəsi təmin edilir. Lakin eyni zamanda çalışmaq lazımdır ki, 2016-cı ildə iqtisadi inkişaf davam etsin.

İlin ötən dövrünün nəticələri göstərir ki, Azərbaycanda iqtisadi inkişaf çox sürətlidir. İlin birinci yarısında ümumi daxili məhsul 6 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatında 9 faiz, kənd təsərrüfatında 7,3 faiz, qeyri-neft sənayesində 14 faiz artım olmuşdur. İnflyasiya isə çox aşağı səviyyədədir. Bütün bunlar göstərir ki, ölkəmiz 2015-ci ili də yüksək uğurlarla başa vuracaqdır. Çünki ölkədə uzun illərdir ki, düşünülmüş iqtisadi siyasət həyata keçirilir. Bu siyasət bu gün beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu proses gələn il üçün də maddi baza və stimul yaradır.

Cənab Prezident 2016-cı ilin büdcəsinə hazırlıq işləri ilə bağlı çıxışında qeyd etmişdir ki, gələn ilin büdcəsinə hazırlıqla bağlı real vəziyyət nəzərə alınmalıdır. Bu büdcə daha çox sosialyönümlü olmalıdır. Əlbəttə ki, ən böyük prioritet təşkil edən investisiya layihələri də icra olunmalıdır. Lakin israfçılığa yol verilməməlidir. Ona görə də Prezident tərəfindən gələn ilin büdcəsinə çox diqqətlə baxılması qeyd olunmuşdur. Cənab Prezident demişdir: «İlk növbədə qeyd etməliyəm ki, bütün sosial proqramlar ixtisarsız icra ediləcəkdir. Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, burada heç bir ixtisar ola bilməz. Mən onu da qeyd etməliyəm ki, sosial infrastruktur layihələri icra olunacaqdır. Məktəblərin, uşaq bağçalarının, xəstəxanaların tikintisi davam edəcək».

Ölkə başçısı çıxışının sonlarında idarəetmə sahəsində islahatların dərinləşdirilməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı daha da ciddi mübarizə aparılması, «ASAN» xidmətə yeni funksiyaların verilməsi, mənzil-kommunal təsərrüfatlarında qanunsuz tələblər irəli sürülməsi, insanların incidilməsi, nəqliyyat xidmətində ciddi qanun pozuntuları olması və s. kimi məsələlərə də toxunmuşdur. Cənab Prezident əmin olduğunu bildirmişdir ki, ölkə 2016-cı ildə də uğurla inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra olunacaqdır.

**Nadir ATAKİŞİYEV.**